# İstanbul: 38-ci Beynəlxalq Kitab Sərgisində Azərbaycan da təmsil olunur

Respublika.-2019.-6 noyabr.-S.5.

**"50-ci illərin ədəbi nəsli" mövzusuna həsr olunan sərgiyə xarici və yerli iştirakçılardan ibarət 800-dən çox təşkilat qatılıb. Sərgi çərçivəsində 300 ədəbi-bədii tədbirin, 3 minə yaxın imza gününün keçirilməsi nəzərdə tutulur. Kitab sərgisinin "Fəxri yazarı" Adnan Özyalçınerdir.**




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və İstanbuldakı Baş Konsulluğumuzun dəstəyi ilə ölkəmiz sərgidə iki xüsusi stendlə təmsil olunur. Beynəlxalq salondakı milli stend 4, "Zəngin Yayıncılıq" nəşriyyatı vasitəsilə təşkil olunan "Azərbaycan" stendi isə 9 gün müddətində fəaliyyət göstərəcək. Azərbaycan bölməsində Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və yerli nəşriyyatlar tərəfindən çap olunan ölkəmizin tarixini, mədəniyyətini, multikultural dəyərlərini və dövlətçilik ənənələrini əks etdirən 300 adda, 600 nüsxədən çox nəşr sərgilənir. Eyni zamanda Mədəniyyət Nazirliyinin "Azərbaycan kitabının dünyada tanıdılması" layihəsi çərçivəsində türk dilinə çevrilən 45 adda Azərbaycan ədəbiyyatı da ziyarətçilərə təqdim edilir.

Azərbaycan bölməsində, ümummilli lider Heydər Əliyevə, Azərbaycan tarixinə, mədəniyyətinə, ədəbiyyat xadimlərinə həsr olunan kitablar da sərgilənir. Azərbaycan və türk dillərində olan bu nəşrlər də ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Milli stenddə quraşdırılmış monitorda ölkəmizin tarixi-mədəniyyət abidələri, müasir memarlığı, ədəbiyyat xadimləri, xalq yaradıcılığı və musiqisi barədə videoçarxlar nümayiş etdirilir.

Sərgi çərçivəsində bölməmizdə türk dilinə tərcümə edilən Nizami Gəncəvinin "Xəmsə"sinin, Nəsiminin "İraq Divanı" və Sona Vəliyevanın "Yurd Sevdası" kitablarının təqdimatı keçiriləcək.

Sərgini ziyarət edən Türkiyənin Mədəniyyət və Turizm naziri Məhmət Nuri Ərsoy Azərbaycan bölməsinə də baxış keçirib. Nazir ölkəmizin sərgidə yüksək səviyyədə iştirakına görə məmnunluğunu bildirib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Aslan Cəfərov Azərbaycan bölməsinin sərgidəki fəaliyyəti, "Azərbaycan kitabının dünyada tanıdılması" layihəsi barədə Məhmət Nuri Ərsoya məlumat verib və Nizami Gəncəvinin "Xəmsə"sini və Nəsiminin "İrak Divanı"nı nazirə hədiyyə edib.

Milli stenddə nümayiş olunan kitabların əsas hissəsi sərginin sonunda ziyarətçilərə paylanılacaq, bir qismi isə Türkiyədəki kitabxanalara hədiyyə olunacaq.

Sərgi noyabrın 10-dək davam edəcək.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə müxbiri.**







